Cari ilin aprelindən etibarən kurikulumun tətbiqi üzrə 30 saatlıq proqram üzrə müəllim hazırlığına başlanılıb, rayon təhsil şöbələrinin müdirləri və məktəb rəhbərləri üçün xüsusi proqram üzrə ayrıca treninqlərin təşkili nəzərdə tutulub.

Bundan əlavə, müasir kurikulumlar üzrə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və treninq-məşğələlərin aparılmasının təmin edilməsi məqsədilə Kurikulum Mərkəzi, Azərbaycan Müəllimlər İnstitutu və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin bir qrup əməkdaşından ibarət təlimçi-məşqçilər hazırlanıb.

Standartların reallaşdırılması istiqamətində yaradıcı müəllimlərin peşəkarlığını stimullaşdırmaq məqsədilə "Standartlardan real təlim nəticələrinə doğru" layihə müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. Əhalinin kurikulumların tətbiqi sahəsində maarifləndirilməsinə kömək etmək üçün 2009-2010-cu dərs ilini əhatə edən "Kurikulum" adlı təqvim hazırlanıb.

İnternet şəbəkəsində yaradılmış www.kurikulum.az saytı əhalinin bütün təbəqələrinin maarifləndirilməsinə xidmət etməklə yanaşı, həm də istifadəçilər üçün resurs rolunu oynayır. Bundan əlavə, kurikulumların tətbiqi məsələləri ilə əlaqədar metodik vəsaitlərin çap edilərək hər bir ibtidai sinif müəlliminə çatdırılması təmin olunub.

Geniş ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması, kurikulum islahatlarının səmərəliliyinin daha da artırılması məqsədilə 2008-ci iln yanvarından nəşrinə başlanmış "Kurikulum" jurnalı öz fəaliyyətini uğurla davam etdirir.